ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 144 (24.031)

3 avqust 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə və 2022-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasında iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edib.

Bildirilib ki, "Sənaye ili" elan edilmiş 2022-ci ilin birinci yarım ili ərzində ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 363 milyon 982 min manatdan artıq olub ki, bu da bir il öncəki göstəricidən 2,2 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,3 faiz artaraq 2942 manatı ötüb. Ümumi daxili məhsulun tərkibində ilk yeri 30,2 faizlə sənaye sahəsi tutub və maddi istehsalın payı 57,9 faiz təşkil edib. Cari ilin ilk yarısında sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 8 milyon 500 min 500 manat kredit verilib ki, bunun da 4 milyon 903 min manatı Sahibkarlığın İnkişafı Fondunun payına düşüb.

Muxtar respublikada sənaye məhəllələrinin yaradılmasının əhəmiyyətindən danışan nazir qeyd edib ki, hazırda 3 istehsal korpusundan ibarət olan Şərur Sənaye Məhəlləsində ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel istehsalı sahələri fəaliyyət göstərir. Həmçinin corab istehsalı, məktəbli ləvazimatları, kağız kisə, karton tara, süd məhsullarının emalı və qablaşdırılması, meyvə-tərəvəzin konservləşdirilməsi və qurudulması və bitki yağı istehsalı sahəsinin qurulması istiqamətində işlər davam etdirilir. Şərur rayonunun əmək ehtiyatları və təbii resursları nəzərə alınaraq iri sahibkarlıq sahələri ilə yanaşı, kiçik sahibkarlıq subyektləri və ailə təsərrüfatları tərəfindən yaradılması məqsədəuyğun hesab edilmiş balın qablaşdırılması, şirniyyat istehsalı, trikotaj malları və digər kiçik istehsal sahələri üçün də yerlər müəyyən edilib.

Kənd təsərrüfatının inkişafı istiqamətində görülən tədbirlərdən bəhs edən nazir diqqətə çatdırıb ki, cari ilin birinci yarım ili ərzində süd emalı, heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq təsərrüfatları, istixana, soyuducu anbar olmaqla, ümumilikdə, 68 sahənin yaradılması və genişləndirilməsi başa çatdırılıb, həmçinin 34 kənd təsərrüfatı məhsulları istehsalı sahəsinin yaradılması davam etdirilib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı yönümlü 60 layihəyə 1 milyon 36 min 300 manat güzəştli kredit verilib. Bununla yanaşı, kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən 50 ailə təsərrüfatına Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ötən dövrü ərzində 766 min 300 manat dövlət maliyyə dəstəyi də göstərilib. Muxtar respublikada istehsal olunan məhsulların tanıdılması məqsədilə qabaqcıl ailə təsərrüfatlarının məhsullarını əks etdirən "Ailə təsərrüfatları" kataloqunun hazırlanması başa çatdırılıb.

Nazir qeyd edib ki, muxtar respublikada sahibkarlığın inkişafını daha da sürətləndirmək və onların fəaliyyətinə mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədilə cari ilin ilk yarısında xüsusi fəaliyyət növləri üzrə 144 icazə, 691 lisenziya verilib.

Muxtar respublikanın ixrac potensialının genişləndirilməsi ilə bağlı məsələlərə toxunan nazir vurğulayıb ki, cari ilin 6 ayı ərzində 12 beynəlxalq sərgidə sahibkarların iştirakı təmin edilib, ümumilikdə, 8 xarici ölkədə keçirilən 19 beynəlxalq tədbirdə 47 sahibkarlıq subyektinin 71 nümayəndəsi iştirak edib. Sərgilərdə 30 növdə 434 çeşiddə məhsul nümayiş etdirilib.

Vurğulanıb ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında nazirliyin qarşısına bir sıra vəzifələr qoyulub. Belə ki, əsas tələbat malları üzrə yerli istehsalın təşviq edilməsi, yeni sahibkarlıq müəssisələrinin yaradılmasının dəstəklənməsi, kredit təşkilatları tərəfindən sahibkarlıq müəssisələrinin kreditləşdirilməsinə və həmin kreditlərdən təyinatı üzrə səmərəli istifadəyə nəzarət olunması, sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsini və yeni sənaye müəssisələrinin yaradılmasının davam etdirilməsi, rentabelli sahələrə investisiyaların cəlbi istiqamətində iş aparılması, ailə təsərrüfatları məhsullarının emalı, qablaşdırılması və ixracına dəstək verilməsi, muxtar respublikada istehsal olunan məhsulların daxili bazarda mövqeyinin möhkəmləndirilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində işlərin davam etdirilməsi, daxili tələbat və ixrac imkanları, o cümlədən ixrac bazarlarında baş verən tendensiyaların düzgün təhlil olunması diqqətdə saxlanılmalıdır.

Tapdıq Əliyev İqtisadiyyat Nazirliyinin fəaliyyətini bu mühüm vəzifələrin icrası istiqamətində quracağını bildirib. Nazir iqtisadi inkişaf üçün yaradılmış münbit şəraitə və geniş imkanlara görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Kollegiya iclası məruzə ətrafında çıxışlardan sonra yekunlaşıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yarım ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib. Kollegiya iclasını nazir Nicat Babayev açaraq bildirib ki, birinci yarım il ərzində muxtar respublikada 1313 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub ki, onlardan da 215 nəfərini əmək yarmarkalarında işə göndərilənlər təşkil edib. İşaxtaran şəxslərin ictimai işlərə cəlb olunması diqqət mərkəzində saxlanılıb, 26-sı sağlamlıq imkanları məhdud şəxs olmaqla, ümumilikdə, 72 nəfər sosialyönümlü ictimai işlərə cəlb olunub. Eyni zamanda işaxtaran və işsiz şəxslərin, ümumilikdə, 198 nəfərin peşə hazırlığı, yenidən hazırlığı və ixtisasartırma kurslarında iştirakı təmin edilib.

Qeyd olunub ki, muxtar respublikada bu günədək 5126 nəfər üzvü olan 1107 ailənin özünüməşğulluğu təmin edilib ki, həmin ailələrə kənd təsərrüfatı, xidmət və istehsal sahələri üzrə aktivlər verilib. Kənd təsərrüfatı sahəsi üzrə özünüməşğulluq proqramına cəlb olunan 1054 ailədən 734-nə 2 baş iribuynuzlu, 189-na 20 baş xırdabuynuzlu, 20-nə 10 yeşik arı ailəsi, 2-nə 100 baş ev quşu və yem ehtiyatı, 82-nə miniyerşumlayan aqreqat, 11-nə inkubator və quş tükü təmizləyən aparat, 11-nə otbiçən, 1-nə otdoğrayan, 2-nə isə südsağan aqreqat, 2 ailəyə su motoru verilib. Eyni zamanda müxtəlif avadanlıq və alətlər verilməklə 41 ailənin xidmət sahələri üzrə özünüməşğulluğu təmin edilib. Bununla yanaşı, lazımi ləvazimat və avadanlıqlar verilməklə istehsal sahəsi üzrə 12 ailə proqrama cəlb olunub.

Nazir bildirib ki, cari ildə 862 nəfər üzvü olan 182 ailə proqrama cəlb edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 vahid çoxdur. Eyni zamanda proqrama cəlb olunmuş və təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirən şəxslərin daha da həvəsləndirilməsi məqsədilə 6 ailəyə aqreqatlar verilib. Bu ildən başlayaraq Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası arasında bağlanan memorandum çərçivəsində sosial qayğıya ehtiyacı olan 50 ailənin proqrama cəlb edilməsi nəzərdə tutulub. Artıq bu ailələrdən 25-i istəklərinə uyğun aktivlərlə təmin olunub. Həmçinin son dövrdə bu prosesə muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri də qoşularaq 20 ailənin özünüməşğulluğunun təmin olunmasında sosial tərəfdaş qismində iştirak edib.

Bildirilib ki, muxtar respublikada məşğulluq tədbirlərinin həcminin və keyfiyyətinin artırılmasına paralel olaraq qeyri-formal məşğulluqla mübarizə də nazirliyin fəaliyyətində əsas istiqamətlərdən birini təşkil edib. Bu sahədə birinci yarım ildə həyata keçirilən nəzarət tədbirləri zamanı 53 obyektdə 118 işçinin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb olunduğu müəyyənləşdirilib, fərdi mühafizə vasitələrindən istifadə etməyən 133 işçi həmin vasitələrlə yerində təmin olunub. Yol verilmiş nöqsanlara dair işəgötürənlərə yazılı xəbərdarlıq edilib, həmçinin xəbərdarlıqların icrasının təmin olunması diqqətdə saxlanılıb.

İyun ayının 1-dən etibarən isə əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin bazasında "Əmək və məşğulluq" altsistemi fəaliyyətə başlayıb. Hazırda sistemdə 50 minə yaxın aktiv əmək müqaviləsi bildirişi mövcuddur.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 15 şəhid ailəsi və müharibə zamanı sağlamlıq imkanlarını itirən şəxs mənzillə, müharibədəki döyüşlər nəticəsində sağlamlıq imkanları məhdudlaşan 16 şəxs avtomobillə təmin olunub. Müvafiq kateqoriyadan olan 4 şəxsin kredit borcu bağlanıb, 10 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Vurğulanıb ki, sözügedən dövr ərzində "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların təhsil müəssisələrinə cəlbi istiqamətində zəruri tədbirlər həyata keçirilib, onların tibbi reabilitasiyası istiqamətində yeniliklərin tətbiqi diqqət mərkəzində saxlanılıb. Bu dövrdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən Distant Tədris Mərkəzində, ümumilikdə, 20-dən artıq sağlamlıq imkanları məhdud uşağın distant tədrisi davam etdirilib.

Cari ildən göstərilən tibbi reabilitasiya tədbirlərinin həcmi artırılıb, nazirliyin tabeliyində fəaliyyət göstərən bərpa mərkəzləri müasir tələblərə cavab verən yeni avadanlıqlarla təchiz olunub. Bu dövrdə bərpa mərkəzlərində 310 nəfərin müalicəsi təşkil edilib, 147 şəxsə protez və ortopedik xidmətlər göstərilib, 350 nəfər reabilitasiya vasitələrilə təmin olunub.

İlin birinci yarısında Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyasında 2000-ə yaxın şəxsin ekspertizası aparılıb, o cümlədən müvafiq dövlət orqanları tərəfindən daxil olan müraciətlər əsasında bir qrup şəxsin əyani müayinəsi təşkil edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində 2022-ci ilin 6 ayı ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclasda cəmiyyətin baş direktoru Vasif Məmmədov çıxış edib. Bildirib ki, 2022-ci ilin altı ayı ərzində 469000 manat dəyərində 93 ədəd olmaqla, ümumilikdə, cəmiyyətin fəaliyyəti dövründə muxtar respublikaya 3495 ədəd texnika və texnoloji avadanlıqlar alınıb. Bəhs olunan dövrdə sahibkarlara 1 milyon 297 min 471 manat dəyərində 61-i lizinq, 38-i isə nağd və köçürmə yolla, ümumilikdə, 99 ədəd texnika və texnoloji avadanlıqlar lizinqə verilib.

Qeyd edilib ki, Ali Məclis Sədrinin Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı ilə bağlı Sərəncamına uyğun olaraq, ümumilikdə, 118 ədəd avadanlıq alınaraq arıçılıqla məşğul olan sahibkarlara satılıb. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Sərəncama uyğun olaraq 2022-ci il ərzində, ümumilikdə, 16 texnika və texnoloji avadanlıq lizinq və nağd yolla kiçik ailə təsərrüfatı sahiblərinə verilib. 2022-ci il 5 aprel tarixdə "Naxçıvan Aqrolizinq" ASC tərəfindən alınmış yeni texnikalara baxış zamanı Ali Məclis Sədrinin verdiyi tapşırıqlara uyğun olaraq Avropa standartlarına cavab verən, günün tələblərinə uyğun texnika və texnoloji avadanlıqların alınıb gətirilməsi davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"na uyğun olaraq bu günə qədər 110 dəst 250 hektarlıq suvarma sistemi alınıb, bundan 109 dəst 245 hektarlıq suvarma sistemi sahibkarlara lizinq yolu ilə verilib. 2022-ci il ərzində 7 milyon 937 min 797 manat dəyərində 13 min 13 ton karbamid gübrəsi güzəştli şərtlərlə torpaq mülkiyyətçilərinə verilib. Torpaq mülkiyyətçilərinə münasib qiymətlərlə 22 adda müxtəlif aqroservis işləri həyata keçirilir, 2022-ci il ərzində 18 min 711 manat dəyərində aqroservis işləri görülüb.

Diqqətə çatdırılıb ki, sahibkarlara, fiziki şəxslərə, kommunal müəssisələrə və bələdiyyələrə nağd və lizinq yolu ilə verilən 10 milyon 336 min 797 manat dəyərində 1123 ədəd texnika və texnoloji avadanlıqların dəyəri tam ödənilib ki, onlardan 17-si kombayn, 168-i isə traktordur. 7 iyul 2022-ci il tarixdə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyində keçirilən səyyar müşavirədə "Naxçıvan Aqrolizinq" ASC-yə verilən tapşırıqlara uyğun olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bələdiyyələrlə işləri əlaqəli şəkildə quraraq əkilməmiş bələdiyyə və dövlət fondlarında olan torpaqların əkilib-becərilməsində cəmiyyət tərəfindən əkilməsi və ya onlara servis xidmətlərini göstərərək torpaqların boş qalmaması üçün bələdiyyələrə hər cür köməklik edilməsi təşkil olunacaq.

Sonra çıxışlar olub.

Xəbərlər şöbəsi

2022-ci ilin isti yay günləri diyarımızda yeni uğurlarla özünü göstərməkdədir. Bu, muxtar respublikanın aqrar sahə ilə məşğul olan sahibkarlarının, ailə təsərrüfatlarının, torpaq mülkiyyətçilərinin gəldiyi qənaətdir. Uğurları dükan-bazarlarımızdakı, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarındakı bolluq da təsdiq edir. Təbii ki, təsərrüfat ilinin başa çatmasına hələ çox var və sahələrdən məhsul tədarük olunmaqdadır. İlin ən qiymətli məhsulunun toplanılması isə uğurla başa çatdırılıb. Yüksək nəticəyə nail olunub. Bu isə o deməkdir ki, süfrələrimizin şahı, ən müqəddəs nemət olan çörək üçün çəkilən zəhmət hədər getməyib.

Taxıl zəmilərindən 107 min 418 ton məhsul götürülüb

Məlumat üçün bildirək ki, ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 33466 hektar sahədə taxıl əkilmişdi. Bu, əvvəlki illə müqayisədə 745 hektar çoxdur. Mövsüm boyu əkin sahələrinə göstərilən aqrotexniki qulluq öz bəhrələrini verib. Əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri, torpaq mülkiyyətçiləri, mexanizatorlar arasında aparılan maarifləndirici tədbirlər yeni nəticəyə nail olunmasında başlıca rol oynayıb. Belə ki, sahələrdən hektarın orta məhsuldarlığı 32,1 sentner təşkil etməklə 107 min 418 ton yüksəkkeyfiyyətli taxıl götürülüb. Müvafiq olaraq bu rəqəmlər ötən il 31,6 sentner və 103 min 372 ton olub.

Müxtəlif təsərrüfat sahələrinin inkişafında mühüm rol oynayan və muxtar respublikanın ən böyük bölgəsi kimi tanınan Şərur rayonunda hər il taxılçılıqda yüksək məhsuldarlığa nail olunur. Bu il də bölgə taxılçılarının zəhməti hədər getməyib. Rayon taxıl tədarükündə birinci yerə sahib çıxıb. Belə ki, 4038 hektar sahədən məhsuldarlıq 40,8 sentner olmaqla, 16484 ton taxıl tədarük edilib.

Bu il də Sədərək rayonu ikinci yerdə qərarlaşıb. Belə ki, cari ildə 2441 hektar sahə taxılçıların zəhmətini yerə vurmayıb: sərhəd bölgəsində 8941 ton məhsul yığılıb, məhsuldarlıq 36,6 sentner olub.

Taxılçılıqda qazanılan zəngin təcrübə Babək rayonunda bu il də özünü göstərib. Qeyd edək ki, hər təsərrüfat ilini uğurla başa vuran rayonun taxılçıları 2022-ci ilin məhsulu üçün muxtar respublika üzrə əkin sahəsinin həcminə görə ilk yerdə olmaqla, yəni 11094 hektar taxıl zəmisindən 35308 ton məhsul əldə ediblər. Bu isə orta məhsuldarlığın 31,8 sentner olması deməkdir.

Cari ilin məhsulu üçün Kəngərli rayonunun taxılçıları 6056 hektar sahə ayırmışdılar. Torpaq mülkiyyətçiləri sahələrdən 18064 ton məhsul tədarük etməklə mövsümü başa vurub, 29,8 sentner məhsuldarlığa nail olublar.

Digər yerlərdə Culfa, Ordubad rayonları, Naxçıvan şəhəri və Şahbuz rayonu qərarlaşıb. Qazanılan uğurların təməlində duran başlıca amil isə, təbii ki, dinamik xarakter alan dövlət qayğısıdır. Belə ki, muxtar respublikaya müasir kənd təsərrüfatı texnikalarının gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, taxılçıların yüksək reproduksiyalı toxum və gübrələrlə təmin edilməsi xüsusi vurğulanmalıdır. O da qeyd olunmalıdır ki, istehsal edilmiş taxılın uzun müddətə saxlanılması üçün yeni anbarların inşa edilməsi, əvvəllər inşa olunmuş anbarların həcminin genişləndirilməsi, məhsulun üyüdülməsi üçün un dəyirmanlarının tikilməsi və mövcud dəyirmanların yenidən qurulması, çörəkbişirmə sexlərinin sayının artırılması, həmçinin bu sahə ilə məşğul olanlara kreditlərin verilməsi taxılçılıqda əldə edilən nailiyyətlərə stimul olub. İstehsal edilən məhsulların münasib qiymətlə satışının təşkili də bu sıradadır.

Heç şübhəsiz ki, qazanılan uğurlar muxtar respublikada mühüm strateji ərzaq məhsulu olan taxılçılığın inkişafına göstərilən bu dövlət qayğısının, mövcud nöqsanların aradan qaldırılması istiqamətində ciddi addımların atılmasının bəhrələridir. İyulun 7-də Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada ərzaq təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. Muxtar respublikada əsas kənd təsərrüfatı məhsullarına olan tələbat tamamilə, taxıla olan tələbat isə, əsasən, yerli istehsal hesabına ödənilir. Bu gün taxıla olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi qarşıda duran əsas vəzifələrdəndir. Bu il taxılın kiloqramı 60, arpanın kiloqramı isə 48 qəpikdən qəbul olunur. Görülən işlərə baxmayaraq, taxılçılıq sahəsində məhsuldarlığa tam nail olunmayıb. Xüsusən aqrotexniki qaydalara ciddi əməl edilmir. Nəticədə, məhsuldarlıq aşağı düşür. Bunların da qarşısı alınmalıdır. Bu gün o ölkələr problem yaşayırlar ki, orada ərzaq və enerji təhlükəsizliyi, sabitlik təmin edilməyib. Lakin ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi, muxtar respublikada da ərzaq və enerji təhlükəsizliyi təmin olunub. Qarşıda duran əsas vəzifə muxtar respublikada strateji məhsul olan taxıl istehsalını artırmaqdır".*** Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir ki, muxtar respublikada strateji ərzaq məhsulu olan taxılçılığın inkişafı bundan sonra da aid qurumlar tərəfindən diqqətdə saxlanılmalı, məhsuldarlıq artırılmalıdır. "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatlarında və Naxçıvan Toxumçuluq Mərkəzində məhsuldar toxum sortları yetişdirilməli, torpaq mülkiyyətçiləri sertifikatlaşdırılmış toxumlarla təmin olunmalıdırlar. Muxtar respublika üzrə dəmyə əkin sahələrinin xəritəsi hazırlanmalı, tam şəkildə əkin aparılmalıdır. Muxtar respublika rəhbəri taxıl əkini sahələrinə suyun aqrotexniki normalarda verilməsinin təmin edilməsi, şoranlaşmaya qarşı tədbirlər görülməsi, torpaqların münbitliyinin artırılması, taxıl emalı müəssisələrində və satış mərkəzlərində texnoloji proseslərə, məhsulun saxlanılma şəraitinə nəzarət edilməsi kimi qarşıya mühüm vəzifələr qoymuşdur ki, bunlar da hər biri ayrı-ayrılıqda məhsuldarlığın yüksəldilməsinə xidmət edən başlıca amillərdir.

Göstərilən hərtərəfli dövlət qayğısı, əldə edilən nailiyyətlər taxılçılığa marağı artırmaqla bu sahə ilə məşğul olanların ailə büdcəsinə xeyli gəlir gətirib. Ona görə də onlar gələn ilin məhsulu üçün payızlıq taxıl əkinlərinə daha səylə və həvəslə hazırlıq işləri görürlər.

Muxtar MƏMMƏDOV

Həmzəli kəndində telekommunikasiya şəbəkəsi yenidən qurulur

Muxtar respublikanın sosial-iqtisadi inkişafı hər bir yaşayış məntəqəsini əhatə edib. İstər şəhər, istərsə də kənd yaşayış məntəqələrində aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri çərçivəsində müasir rabitə infrastrukturu yaradılır, yeni avadanlıqlar quraşdırılmaqla xidmətlərin səviyyəsi ilbəil yüksəldilir.

Şərur rayonunun Həmzəli kəndində də yeni sosial obyektlər inşa olunur, geniş abadlıq işləri görülür. Kənddə rabitə infrastrukturunun yenidən qurulması, xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və sakinlərin genişzolaqlı internet xidmətlərindən yararlanması istiqamətində mərhələli şəkildə zəruri tədbirlər həyata keçirilir. Yeni inşa edilən kənd mərkəzində rabitə evinin də fəaliyyət göstərməsi nəzərdə tutulur, 192 nömrə tutumlu yeni nəsil Avtomat Telefon Stansiyasının qurulması istiqamətində

məqsədyönlü işlər görülür. Həmçinin kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltı xətlərlə əvəz olunur, fiber-optik xətlər çəkilir. Bu məqsədlə 70 ədəd yeni metal rabitə direyinin basdırılmasına başlanılıb, eyni zamanda 550 metr fiber-optik xətlər və müxtəlif tutumlu kabellər çəkilir, yeni paylayıcı şkaf və abonent qutuları əlavə edilməklə telekommunikasiya şəbəkəsi yenidən qurulur.

Bunlarla yanaşı, rayonun Zeyvə, Qarxun, Aşağı Aralıq, Püsyan, Mahmudkənd, Sərxanlı, Düdəngə, Oğlanqala, Məmmədsabir və digər kəndlərində də sakinlərin qarşılaşdığı rabitə xidmətləri ilə bağlı problemlərin aradan qaldırılması üçün yararsız rabitə direkləri dəyişdirilib, müxtəlif tutumlu kabellərdən istifadə edilərək rabitə xətlərindəki nasazlıqlar aradan qaldırılıb. Şərur Sənaye Məhəlləsinə və Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə inşa edilmiş kabel kanalizasiya qurğuları vasitəsilə yeraltı olaraq fiber-optik xətlər çəkilib.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti

"Sığorta" termini günümüzdə çox işlənən önəmli bir məfhuma çevirilib. Artıq hər kəs öz sağlamlığını, əmlakını, avtomobilini, əşyasını sığortaladaraq rahat şəkildə yaşamaq istəyir. Sığortalanmaq gözlənilməz bədbəxt hadisələrdən ən az zərərlə çıxmaq, özünü və yaxınlarını qorumağın ən birinci yolu və hər kəsin əsas arzusudur. Bəhs olunan dövrdə Dövlət Sığorta Xidməti də insanların məhz bu arzularının reallaşması üçün yeni yollar axtarır, öz xidmətlərini daha da genişləndirir.

Sığorta günümüzün əsas tələbidir

Məlumat üçün qeyd edək ki, xidmət 2022-ci ilin birinci yarısını istər həyat, istərsə də qeyri-həyat sığortası üzrə uğurla başa vurub. Xidmət tərəfindən 2022-ci ilin birinci yarısında həyat və qeyri-həyat sığorta sinifləri üzrə 5-i icbari, 12-si könüllü olmaqla, 17 sinif üzrə aktiv sığorta yığımı həyata keçirilib.

Qeyd edək ki, sığorta haqlarının yığılmasında səyyar xidmətin rolu əvəzedilməzdir. Səyyar sığorta xidməti muxtar respublikamızın ucqar dağ kəndlərinədək gedib çatır, vətəndaşlarla görüş keçirir, maarifləndirici söhbətlər aparır və yeni sığorta müqavilələri bağlayır. 2022-ci ilin 6 ayı ərzində, ümumilikdə, muxtar respublikanın 7 rayon, 3 şəhər, 7 qəsəbə, 99 kəndində fəaliyyət göstərilib ki, bu da ötən illə müqayisədə səyyar xidmətin əhatə dairəsində 32, sığorta müqavilələrinin sayında 43, sığorta haqlarında isə 73 faiz artım deməkdir.

Xidmət tərəfindən aparılan sığorta fəaliyyəti üzrə sığorta haqlarının yığımında ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 6 faiz, könüllü sığortalar üzrə fiziki şəxslərə məxsus əmlakın sığortasında 0,43 faiz, fərdi qəza sığortasında 13 faiz, sahibkarlara məxsus əmlakın yanğın və digər əlavə risklərdən sığortasında 11 faiz, girov sığortasında 34 faiz, ipoteka krediti üzrə borcalanın fərdi qəza və əmək qabiliyyətinin itirilməsi riskinin sığortasında 67 faiz, avtomobil nəqliyyatı vasitələrinin tam sığortasında 29 faiz, kənd təsərrüfatı bitkiləri məhsullarının sığortasında 77 faiz, kənd təsərrüfatı məhsullarının sığortasında 12 faiz, kənd təsərrüfatı heyvanlarının sığortasında 0,1 faiz artım olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən Aqrar Sığorta Fondunun yaradılmasından sonra fondla bağlanılan müqaviləyə uyğun olaraq cari dövrdə güzəştli sığorta müqavilələrinin bağlanılmasına başlanılıb və bu da əhalinin diqqət mərkəzinə çevrilib. Buna səbəb isə bağlanılan müqavilələrin güzəştli şəkildə yazılmasıdır. Yəni burada sığortahaqqının 50 faizini sığortalı, digər 50 faizini isə fond ödəyir. Bu da daha çox sığorta müqaviləsi bağlanılmasına və vətəndaşın marağına səbəb olur. Bunun ifadəsidir ki, bəhs olunan dövrdə heyvandarlıq üzrə 203, bitkiçilik üzrə 749 olmaqla, cəmi 952 güzəştli şəkildə sığorta müqaviləsi bağlanılıb.

Cari il fevral ayının 4-də Naxçıvan Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə Ali Məclisin Sədri tərəfindən xidmətin qarşısına qoyulan ***"Sahibkarlıq sahəsində risklər düzgün dəyərləndirilməli və könüllü sığortaya üstünlük verilməli, Dövlət Sığorta Xidməti sahibkarlarla işə diqqəti artırmalıdır"*** tapşırığının icrasına uyğun olaraq xidmətdə sahibkarlarla aparılan işlərin əhatə dairəsi genişləndirilib və bu sahəyə diqqət daha da artırılıb. Belə ki, iyun ayında muxtar respublikanın şəhər və rayonları üzrə sahibkarlıq fəaliyyətinin gücləndirilməsi üçün sığorta olunmayan obyektlərin sığortalanmağa cəlb edilməsi məqsədilə daimi fəaliyyət göstərən komissiya yaradılıb. Məlumat üçün bildirək ki, bu sahə üzrə cari ilin 6 ayı ərzində 592 yeni sığorta müqaviləsi bağlanılıb. Həmçinin sığorta müqavilələrinin sayında cari dövrdə ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz artım olub.

Onu da qeyd edək ki, birinci yarım ilin ən böyük uğuru sayılan əsas nailiyyət iki yeni könüllü sığorta növünün yaradılmasıdır. Bununla da könüllü sığorta növü 19-a yüksəlmişdir. Yeni olan yüklərin sığortası və könüllü tibbi sığorta növləri digər sığorta növləri kimi birbaşa xalqın mənafeyinin qorunmasına, onlara dəyəcək zərərlərin qarşısının alınmasına xidmət edəcək.

Yüklərin sığortası daşınan yüklərin artıq daha rahat, güvənli şəkildə ünvana çatdırılmasına, könüllü tibbi sığorta isə vətəndaşların, xüsusilə də respublikada yaşayan xarici tələbələrin, əcnəbi vətəndaşların sağlamlığının qorunmasına kömək edəcək. Yeni sığorta növləri ilə bağlı broşür və flayerlərin də hazırlanması nəzərdə tutulub. Həmçinin Dövlət Sığorta Xidməti daha bir yeniliyə imza atıb və ***505*** qısa nömrəli qaynar xətt xidmətini yaradıb. Qaynar xəttin yaradılmasında əsas məqsəd sığorta hadisələri ilə bağlı məlumatları operativ şəkildə qəbul etmək və baş vermiş sığorta hadisələrinə dair sənədləşmə işləri üzrə sualları dərhal cavablandırmaqdır.

Əlavə olaraq 6 ay ərzində xidmət tərəfindən Dövlət proqramlarının icrası nəzarətdə saxlanılıb, bəndlərin icrasına uyğun olaraq 6 aylıq məlumatlar aidiyyəti üzrə təqdim olunub.

Maarifləndirmə işlərinin artırılması məqsədilə xidmət tərəfindən ardıcıl şəkildə sosial şəbəkədə yeni postlar paylaşılıb, televiziya və radioda yeni sığorta növləri barədə reklam çarxları verilib, şəhər və rayon qəzetlərində məqalələr dərc olunub. Həmçinin eyni məqsədlə şəhər və rayonlarda artıq daimi xarakter alan tədbirlər keçirilir, vətəndaşların suallarına izahedici cavablar verilir, sığortanın mahiyyəti, onun növləri barədə dərindən məlumatlandırılırlar. Qeyd edək ki, yarım ildə, ümumilikdə, 45 təşkilatda 1963 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilib.

Görülən işlərin nəticəsi olaraq onu deyə bilərik ki, 2022-ci ilin ilk 6 ayında xidmətin fəaliyyəti uğurlu olub, hərtərəfli və çoxşaxəli işlər həyata keçirilib.

Şəfa ƏHMƏDLİ
"Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin baş mütəxəssisi

2 avqust – Azərbaycan Kinosu Günü qeyd olunub

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində 2 avqust – Azərbaycan Kinosu Günü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra – 1898-ci il avqustun 2-də "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərin nümayiş etdirilməsi ilə Azərbaycanda milli kinonun əsası qoyulmuşdur.

Vurğulanıb ki, bu gün Azərbaycan kinosunun yaradılmasının 124 ili tamam olur. Ümummilli lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə hər il avqustun 2-si ölkəmizdə kino işçilərinin peşə bayramı – "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur. 124 illik çətin, mürəkkəb və şərəfli bir yol keçən Azərbaycan kinosu xalqımızın tarixini, milli-mənəvi dəyərlərini, insan və onun cəmiyyətdəki mövqeyini ekranlara gətirməklə bərabər, həm də dəyərlərini qorumuş və yaşatmışdır.

İncəsənətimizin hamisi olan ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövrlərində milli kinonun inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir. Bu illərdə milli kino sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, kino sahəsində çalışan sənətkarlar diqqət və qayğı ilə əhatə edilmişdir.

Bildirilib ki, ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi dahi rəhbər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il iyulun 3-də "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və bununla da dövlət kinematoqrafiyasının hüquqi bazası yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 22 dekabr tarixli Sərəncamına əsasən Azərbaycan Dövlət Film Fondu yaradılmış və filmlərin qorunması təmin edilmişdir.

Diqqətə çatdırılıb ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Muxtar diyarımızda da kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı sayəsində Naxçıvan şəhərində "Gənclik" Mərkəzi yaradılmış, Şərur və Şahbuz şəhərlərində "Bahar", "Araz" kinoteatrları, rayon mərkəzlərindəki mədəniyyət sarayları yenidən qurulmuş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi bu sahəyə göstərilən qayğının daha bir nümunəsidir.

Tədbirdə Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış edərək bildirib ki, 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Dövlət Film Fondunun Naxçıvan filialı yaradılmış, 2000-ci ilin yanvar ayından fəaliyyətə başlamışdır. Fond 2006-cı ildən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində müstəqil qurum kimi fəaliyyət göstərir. Müəssisədə bədii, elmi-kütləvi, sənədli və animasiya filmləri olmaqla, təxminən, 5000 adda film mühafizə edilir.

Qeyd edilib ki, ilk dəfə məhz bu gün geniş tamaşaçı auditoriyasına təqdim olunacaq Zeynəb Kazımovanın "Axırıncı namaz" qısametrajlı bədii filmi 1963-cü ildə "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırılıb. Adına bu günədək Azərbaycan kinosu haqqında hazırlanmış heç bir kataloq və siyahıda rast gəlinməyən filmin yeganə nüsxəsi Naxçıvan Dövlət Film Fondunun bazasında aşkara çıxarılıb və həmin nüsxə elektron formatda bərpa olunub.

Çıxışda nümayiş olunacaq digər sənət əsəri – 2019-cu ildə Bakı Media Mərkəzində rejissor Zaur Qasımlı tərəfindən ekranlaşdırılan, məşhur Nobel qardaşlarının XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda neft sənayesinin inkişafında göstərdikləri fəaliyyətdən bəhs edən "Miras" filmi haqqında da məlumat verilib.

Sonda Zeynəb Kazımovanın "Axırıncı namaz" bədii filminin təqdimatı olub, Zaur Qasımlının "Miras" bədii-sənədli filmi nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti

Muxtar respublikamızda ümummilli liderimiz Heydər Əliyevin ideyalarına söykənən məqsədyönlü siyasətin tərkib hissəsi kimi gənclərin elmə, təhsilə, müxtəlif sənət, peşə sahələrinə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır, təhsil müəssisələrində innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadə ilbəil öz müsbət nəticələrini verir. Hər il qəbul imtahanlarında əldə olunan uğurların yüksələn templə artması da məhz təhsil sahəsində görülən işlərin, bu istiqamətdə reallaşdırılan layihələrin bəhrələridir. 2021-2022-ci tədris ilinin qəbul imtahanlarında qazanılan nailiyyətlər muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonunun timsalında da təqdiredicidir. Bu müsbət amili nəzərə alıb rayonun Ərəzin, Xoşkeşin, Yaycı və Göydərə kəndlərinin yüksək bal toplayan abituriyentləri ilə həmsöhbət olub fikirlərini öyrənməyə çalışdıq.

Gəncliyimiz, gələcəyimiz

Etibarlı, perspektivli gələcəyə gedən yol

Ərəzin kənd tam orta məktəbini "Gümüş" nişanla bitirən ***Şahin Hacıyev*** III ixtisas qrupu üzrə 618 bal toplayaraq adını Culfa rayonunun ən yüksək nəticə göstərən abituriyentləri sırasına yazdırıb. Onunla söhbətimizdə əsrlərdir, böyükdən kiçiyə hər kəsin dilində aforizmə çevrilən, ustad şairimiz Nizami Gəncəvinin "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" misralarını xatırladaraq dedi: – Dahi ustadın bu hikmətamiz sözləri hər kəsə cəmiyyətdə elmin, təhsilin, savadın hər şeydən üstün olduğunu aşılayır, insanları elm dəryasına baş vurmağa, onun sirlərinə yiyələnməyə, sənətin, peşənin kamil bilicisi olmağa səsləyir. Müasir dövrümüzdə elm və texnologiyanın günbəgün yeniləndiyini nəzərə alanda elmli, təhsilli yetişməyin, böyük mənada, önəmli olduğu daha da ön plana çıxır. Bu mənada, bugünkü dövr biz gənclərdən daim öz üzərimizdə çalışmağı, yorulmadan öyrənməyi, yalnız irəli getməyi tələb edir. Təqdirəlayiq haldır ki, məktəbimizdə yaradılan təhsil şəraiti, müəllimlərin şagirdlərə, onların bilikli yetişməsinə göstərdiyi diqqət hər il yüksək bal toplayanların sayının çoxalması ilə nəticələnir. Hər tədris ilinin sonunda tələbə adını qazananların sevincinə şahid olduqca oxumağa həvəsim daha da artırdı. Fəxrlə deyə bilərəm ki, məktəb illərində bir sıra uğurlar əldə etmişəm. Coğrafiya fənni üzrə 9-cu sinifdə respublika fənn olimpiadalarında ölkə və muxtar respublika üzrə 2-ci yeri tutmuşam. 10-cu sinifdə oxuyanda isə "Xəmsə" intellektual oyununda rayon üzrə qalib, muxtar respublika ikincisi oldum. Yuxarı siniflərdə iştirak etdiyim sınaq imtahanlarında yüksək bal topladığım üçün tələbə adını qazanacağıma inamım böyük idi. Müəllimlərim, valideynlərim qəbul imtahanlarında məndən yüksək nəticə gözləyirdi və sevinirəm ki, onları yanıltmadım.

Şahin qazandığı uğrunda əməyi olan müəllimlərinə minnətdarlıq hissini belə ifadə etdi: – Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdriklik və səbirlə bizə öyrətmiş və öyrədir. Mən də həm bilik yarışlarında, olimpiadalarda, həm də qəbul imtahanında qazandığım uğurlar üçün müəllimlərimə çox minnətdaram. Xüsusilə də üzərimdə zəhməti böyük olan Azərbaycan dili və ədəbiyyat müəllimim Nicat Babayevin adını qeyd etməyi özümə mənəvi borc bilirəm. Nicat müəllim daim dərslərimlə maraqlanıb, oxumağa, alitəhsilli olmağa həvəsləndirib məni. Gələcək peşəmlə bağlı da müəllimimin dəyərli məsləhətlərini almışam. Ən böyük arzum hüquq sahəsində çalışmaqdır, elə bu məqsədlə də Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçmək istəyirəm. İnanıram ki, topladığım bal mənə bu ixtisasa qəbul olmaq imkanı verəcək. Fürsətdən istifadə edib bir daha üzərimdə böyük əmək sərf edən müəllimlərimə, valideynlərimə öz dərin minnətdarlığımı bildirirəm.

Xoşkeşin kənd tam orta məktəbinin məzunu ***Ləman Bağırlı*** II ixtisas qrupu üzrə 607 bal toplayıb. İlk həmsöhbətimiz Ləmanın coğrafiya müəllimi *Nigar Cəfərova* şagirdi haqqında ürəkdolusu danışdı. Bildirdi ki, məktəbin builki abituriyentləri arasında Ləman ən yüksək nəticə göstərməklə təhsil müəssisəsinin, ona dərs deyən müəllimlərin adını ucaldıb: – Böyük Çin filosofu Konfutsi deyirdi ki, heç kim müvəffəqiyyət nərdivanını əlləri cibində çıxmayıb. Bəli, tanınmış sənət adamlarının, görkəmli şəxsiyyətlərin həyatına nəzər salanda aydın olur ki, onlar bu yüksək pilləyə asanca gəlib çatmayıblar. Həyatın keşməkeşli yollarında əsən burulğanlarla tez-tez üzləşiblər. Dünya mübarizləri sevir, gərək arxasınca getdiyin işin, peşənin, sənətin çətinliyi səni qorxutmasın, məqsədin naminə sonadək çalışasan. Bu baxımdan təcrübəyə əsaslanıb deyə bilərəm ki, bəzi şagirdlər var ki, hər hansı fənnə, sahəyə maraqları, qabiliyyətləri, bacarıqları olsa da, qarşılarına məqsəd qoymurlar. Nəticədə, uğur qazana bilmirlər. Lakin Ləmanda bu məqsədi hər zaman hiss etmişəm. O, coğrafiya üzrə fənn olimpiadalarında, müxtəlif bilik yarışlarında uğurlu iştirakı ilə müəllimlərini daim qürurlandırıb. Sınaq imtahanlarında hər zaman yüksək bal toplayan Ləmanın qəbulda da uğur qazanacağına şübhəmiz yox idi və o öz biliyi ilə biz müəllimlərin etimadını doğrultdu.

Mütaliəyə marağının böyük olduğunu, həm xarici ölkələr, həm də Azərbaycan ədəbiyyatını, "Oxunması zəruri olan kitabların Siyahısı"nda yer alan bir sıra əsərlər mütaliə etdiyini söyləyən Ləman Bağırlı qazandığı uğurun sevincini bölüşərək dedi: – Gələcəkdə iqtisadiyyat sahəsində çalışmağı qarşıma məqsəd qoymuşdum. Ötən il Naxçıvan Dövlət Universitetində tədrisi ingilis dilində olan İqtisadiyyat ixtisasının açıldığını eşidəndə çox sevindim və həmin ixtisasa yiyələnmək üçün daha da səylə çalışdım. Qəbul imtahanlarında topladığım balı da nəzərə alaraq seçimimi arzuma rəğmən edəcəyəm. İnanıram ki, Naxçıvan Dövlət Universitetinin ingilisdilli İqtisadiyyat ixtisasının tələbəsi ola biləcəyəm. Muxtar respublika üzrə tələbə adını qazanan bütün gənclər kimi, mənim üçün də daha bir əlamətdar hadisə isə Ali Məclisin Sədri ilə görüşmək olacaq. Biz gənclərin qarşısında geniş üfüqlər açdığına görə dövlətimizə minnətdarlıq edirəm.

Yaycı kənd 2 nömrəli tam orta məktəbi "Gümüş" nişanla bitirən, IV ixtisas qrupu üzrə 636 bal toplayan ***Dəniz İmanova*** sevincini bizimlə belə bölüşdü: – Hələ ibtidai siniflərdən təbiət elmlərinə marağım böyük olub. Müəllimlərimin də məsləhəti ilə IV ixtisas qrupu üzrə hazırlaşmağı məqsədəuyğun hesab etdim. Fikrimcə, hər kitab, hər fənn bir həyatdır, məqsəddir, amaldır, axtardığın suallara ən mükəmməl cavabı elə oxuduqlarında tapırsan. Bu baxımdan doğru deyiblər ki, yazıçılar həyatdan köçməmişdən öncə minlərlə insanın həyatını, kitab oxumayanlar isə yalnız bir həyatı yaşayırlar. Ancaq gərək təkcə oxumaqla kifayətlənməyib özün üçün nəticə çıxarmağı, hər hansı sahə üzrə püxtələşməyi də bacarasan. Məqsəd isə gələcəyin savadlı gənci, mütəxəssisi kimi yetişib həm özünə, həm də cəmiyyətə, dövlətə fayda vermək olmalıdır. Bu mənada, mən də dərslərimə hər zaman diqqətlə yanaşmağa, fənləri dərindən öyrənməyə çalışmışam. Kimyaya bağlılığım daha çox olub, müəllimim Şəhla Əliyevadan bu fənnin incəliklərini öyrənməyə çalışmışam.



Məktəb illərində qazandığı uğurlar barədə söhbət açan Dəniz bildirdi ki, kimya fənni üzrə respublika fənn olimpiadalarında uğurlu çıxışlar edib. Bundan başqa, idmana, xüsusilə də basketbol və voleybola böyük maraq göstərib. Yuxarı siniflərdə oxuyanda cəldlik, çeviklik kimi bacarıqlar formalaşdıran bu idman növləri ilə müntəzəm məşğul olub, keçirilən rayon birinciliklərində komanda tərkibində fərqlənə bilib. Gələcək planları barədə danışan həmsöhbətimiz əlavə etdi: – Kiçik yaşlarımdan valideynlərim gələcəkdə məni həkim kimi görmək istəyirdilər, yuxarı siniflərdə oxuyanda muxtar respublikamızda fəaliyyət göstərən müasir səhiyyə ocaqlarında oldum, orada yaradılan şəraiti, çalışan tibbi personalı gördüm və bu sahəyə marağım daha da çoxaldı. Beləcə, həkimlik peşəsini həyat amalıma çevirməyi qarşıma məqsəd qoydum. Qəbul imtahanlarında əldə etdiyim yüksək nəticəyə uyğun olaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasını seçəcəyəm. İnanıram ki, həmin ixtisasda oxumaq mənə qismət olacaq. Uğur qazanmağımda ailəmin, müəllimlərimin dəstəyi böyük olub. Onlardan aldığım köməklik sayəsində səylə çalışdım və ürəkaçan nəticəni qazandım. Hər birinə minnətdaram.

Göydərə kənd tam orta məktəbinin məzunu, rayon üzrə keçirilən bilik yarışlarında, riyaziyyat üzrə fənn olimpiadalarında fərqlənməyi bacaran, qəbul imtahanında 582 bal toplayan ***Sevinc Məmmədova*** müasir dövrün yenilikləri ilə ayaqlaşmaq, intellektual gənc kimi yetişmək üçün 6-7-ci siniflərdən özünü inkişaf etdirməyi qarşısına məqsəd qoyub. Bu barədə dediklərindən: – Amerikalı professor Riçard Nelsonun gözəl sözü var. Deyir, adi insanlar vaxtlarını neçə keçirməyi düşünür, müdrik insanlar isə vaxtdan necə faydalanmağı. Bəli, bu hikmətli ifadədən yola çıxıb demək olar ki, gərək həyatda heç bir anı boş buraxmayasan, öyrənməkdən, çalışmaqdan usanmayasan. Ancaq bir həqiqəti də unutmaq olmaz ki, dəyişən zamanla, dövrlə ayaqlaşmaq, müasir texnologiyalardan baş çıxarmaq da zəruridir. Əks halda özünə perspektivli gələcək qurmaq, tutduğun yolda uğur qazanmaq mümkünsüz olar. Mən də məktəbdə oxuduğum müddətdə dövrümüzün yeniliklərindən geri qalmamağa, kompüterdə işləməyə, müxtəlif proqramlar öyrənməyə can atmışam. Fikrimcə, müasir dövrün gənci mütləq bu yöndə özünü inkişaf etdirməli, ən azı bir xarici dili mükəmməl bilməlidir. Elə qəbul imtahanlarına hazırlaşan zaman qarşımdakı məqsəd, gələcək planlarım da müasir dövrün yenilikləri ilə bağlı olub. Topladığım balı da düşünərək Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Kompüter elmləri ixtisasını seçəcəyəm. İnanıram ki, bu istəyim baş tutacaq və mən gələcəkdə texnologiyalar sahəsində mütəxəssis kimi fəaliyyət göstərə biləcəyəm.

Sevincin məktəb illərində dərslərdə göstərdiyi fəallığı ilə yanaşı, şahmata da xüsusi marağı olub, bu zəka oyunu üzrə də uğurlar qazanıb. Lakin ali təhsil qazanmaq istəyi böyük olduğundan yuxarı siniflərdə dərslərinə daha çox diqqət yetirib. Zəhməti nəticəsiz qalmayan Sevinc bütün abituriyentlərə ixtisas seçimində uğurlar arzulayıb, tələbə adını qazanmaq dilədi.

Bugünkü gəncliyin haqlı olaraq bir şüarı vardır: Parlaq gələcək təhsillə gələcək. Bəli, xoşbəxt, inamlı, etibarlı, perspektivli gələcəyə doğru gedən yolun üfüqləri yalnız elm, savad və təhsillə açılır. Hər il muxtar respublikamızda yüzlərlə abituriyent uğurlu gələcəyə aparan elm ziyasının yolçularına çevrilirlər. 2021-2022-ci tədris ilinin qəbul imtahanlarında əldə olunan göstəricilər bu sahədə qazanılan nailiyyətlərin artan templə davam edəcəyini deməyə əsas verir.

Nail ƏSGƏROV

Vətən boyda ürək... Bu cümlənin mənəvi böyüklüyü, dəyəri elə Vətən boydadır. Bəs bu ürəyin döyüntüsünə şahid olanlar kimdir? Hər kəs o döyüntünü duya bilərmi? "Xeyr" – dediyinizi dərhal hiss etdim. Nə hər kəs Vətən boyda ürək daşıya, nə də hər kəs o döyüntünü hiss edə bilər. Torpaq Aminin Vətən üçün çırpınan ürəyinin son dəfə döyüntüsünü hiss etdiyi kimi, Aminin də ruhu şəhid həsrəti ilə döyünən qəlbimin döyüntüsünü hiss etdi. O an oradaca zamanın durmasını istədim. Hər dəfə Aminin adını duyduğumda sanki illərlə tanıdığım bir insandan söhbət gedirmiş kimi hiss edirdim. Bu həm qəlbimdə yer edən şəhid sevgisindən irəli gəlirdi, həm də Aminin ailəsinin doğmalığından. Dərdləri nə qədər böyük olsa da, qəlblərinə sevgi ilə sakin etmişdilər məni şəhid ata-anası. Onları tanıdıqca Aminin Vətən sevgisinin təməlinin haradan qaynaqlandığını daha aydın sezirdim. Belə valideynlərin övladı da elə Amin kimi qəhrəman olmalı idi. Gülməmmədov Amin Mayis oğlu bir bacıdan sonra dünyaya göz açan əkiz qardaşlardan biri idi. Qardaşı Ramindən 20 dəqiqə sonra dünyaya göz açdığı üçün valideynləri Amini sonbeşik övlad kimi əzizləmişdirlər.

Əfsanəyə dönən ömürlər

Vətənin sadiq və məğrur keşikçisi

31 iyul 1995-ci ildə Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Saltaq kəndində dünyaya göz açan Amin və Raminin həm bənzər, həm də fərqli cəhətləri olub. Amin daha çılğın, mehriban, gülərüz xüsusiyyətləri ilə fərqlənməyi bacarırmış. Qəlbə tez yol tapmağı onun özünəməxsusluğundan irəli gəlirdi.

2001-ci ildə Saltaq kənd tam orta məktəbinə qədəm qoyan şagirdlər sırasında əkiz qardaşlar da yer almışdılar. Çevik, cəld, bir az da dəcəl olan Amin səmimiliyi ilə məktəbdə də hər kəsin qəlbinə yol tapmağı bacarmışdı. Gözlərinin gülüşü ilə ətrafını gözəlləşdirməyi bacaran bu oğul Vətən nisgilinə ürəyinin ən dərinində ruhu ilə keşik çəkirdi. Amin də Vətən dərdi ilə bərabər böyüyürdü. Naxçıvanın hər daşında, qayasında düşmənin açdığı sağalmaz yaraları çox görmüşdü. Hər dəfə ata-anasına Vətənlə, Qarabağla bağlı suallar verəndə gözlərindən yan qaçan baxışların ondan gizlənən göz yaşları olduğunu bilsə də, bəlli etdirmirdi. Ancaq bir gün o gözlərə dik baxmaq üçün bütün gəncliyini, gələcəyini Vətənə fəda edəcəyini bilərəkdən hərbçi peşəsini seçdi. Şərəfli yolun başlanğıcı 2010-cu ildə başladı. Amin Heydər Əliyev adına Hərbi Liseyə ilk addım atdığı zaman o yolun dönüşünün olmayacağını təxmin etmişdi. "Son nəfəsimə qədər Vətənin keşiyində duracağam", – deyən Amin andına xilaf çıxmadı.

İntizar ana Aminə daha çox jurnalist peşəsini yaraşdırırmış. Hər dəfə oğluna kənd-kənd, şəhər-şəhər gəzib verilişlər hazırlayaraq insanları tanıtmağını istədiyini deyirmiş. Ancaq Amin özü bir qəhrəman kimi tanındı. Amin hərbçi peşəsini seçdiyi gündən ailəsinin həsrəti başladı. O həsrət hər kəsə ağır gəlirdi. Ata-ana artıq övladlarının Vətənlə izdivac bağladığını gözəl bilirdilər. Ancaq Amindən ayrı düşən əkiz qardaşı Ramin üçün bu həsrət daha ağır idi. Ramini özünə sirdaş bilən Amin üçün də qardaşından uzaq yaşamaq asan deyildi. Ancaq bu həsrətin əbədi ayrılıqla nəticələnəcəyini heç kim düşünmür və ya düşünmək istəmirdi. Amin 2013-cü ildə Heydər Əliyev adına Hərbi Liseyi uğurla bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur. Öhdəliklərini bilən, bütün addımlarını düşünüb atan Amin Vətənə layiqli zabit olmaq üçün hər vəchlə çalışır. Dördillik hərbi təhsilini 2017-ci ildə leytenant hərbi rütbəsi alaraq tamamlayır. Vətən səngəri – əsl Vətən övladlarının özlərinə ev-eşik saydıqları ünvan. O evin isti döşəməsi olmur. Ancaq nəm torpaq o qədər doğma gəlir ki, sanki ən yumşaq yataqmış kimi hiss edirsən. Qaranlıq gecələrdə göydə süzən ulduzlar tək sirdaşı olur Vətənlə əhd-peyman bağlayan Vətən əsirinin. Amin də üç il Vətən səngərində gecə-gündüz demədən ömür sürür. Füzuli rayonunun Alxanlı kəndində düşmənlə üz-üzə dayanıb Vətənə sipər olan Amin sonra Şükürbəylidə yerləşən "N" hərbi hissədə xidmət edir, daha sonra təkrar Alxanlı kəndində yerləşən "N" hərbi hissədə xidmətini davam etdirir. Aminin amalı təslim olmaq yox, təslim etmək olub. 2019-cu il fevralın 5-də Amin 1 aylıq məzuniyyətə göndərilir. Ancaq məzuniyyətinin 1-ci həftəsində tabeliyində olan əsgərin şəhid olmasını eşidən an məzuniyyətini yarımçıq saxlayıb geri dönür. O gediş Aminin evindən son gedişi olur...

Aminin ön cəbhədə düşmənlə üzbəüz dayandığını bilən ailəsi narahat olmuşdu. Ancaq Amin heç zaman arxa cəbhədə xidmət etməklə razılaşmamışdı. "Hər əsgər bir ailənin oğludur. Mən də onlardan biriyəm. Mən olmasam, digər əsgər düşmənlə üz-üzə duracaq. O əsgərin də yolunu gözləyənlər var", – deyən Amin hər çətinliyə sinə gərir, hər zaman xidməti vəzifəsini layiqincə icra edir. Elə bunun nəticəsi idi ki, o, 2020-ci ilin may ayında baş leytenant hərbi rütbəsinə layiq görülür. Cəbhədə günbəgün artan gərginliyin müharibə ilə nəticələnə biləcəyini də düşünən Amin təlimlər zamanı hər bir əsgərin hərbi biliyinin artırılması üçün çalışır. 26 sentyabrda Amin doğmalarına zəng edir. Hər kəs ilə tək-tək danışıb və hər şeyin yaxşı olduğunu deyir. Əslində isə o zəngin məqsədi vida etmək olub. Amin təxmin edirdi ki, azğınlaşmış düşmənin təxribatlarının qarşısını almaqda onların dəstəsi öndə gedənlərdən olacaq. Elə də olub. 27 sentyabrda müharibə başlayan ilk andan Amin öndə gedənlərdən biri olub. Füzulidən başlayan döyüş yolu Cəbrayıl, Qubadlı, Xocavənddən keçib Şuşaya çatıb. O yolda Amin yaralanmasına baxmayaraq, döyüşlərə davam edib.

29 sentyabrda Gülməmmədovlar ailəsinin yeni üzvü dünyaya göz açıb. Həmin gün Amin zəng edib bacısını ana olması münasibətilə təbrik edib. Körpəyə Əli adını yaraşdırdığını deyib. Həmin gün Amin ilk dəfə Mayis müəllimə vəziyyətin nə qədər gərgin olduğunu bu sözlərlə deyib: "Ata, hər xəbərə hazır ol. Anama və bacı-qardaşıma bu barədə bir kəlmə də demə. Ancaq bu bizim son danışığımız ola bilər". Amin döyüşün ən sərt üzünü görənlərdən biri olub. Oktyabrın 6-da onların dəstəsi mühasirəyə düşüb. 4 gün mühasirədə qalan Amin və dəstəsi mühasirədən çıxmağı bacarıb. Döyüşlərdən birində Amin qolundan yaralanıb. İlkin tibbi yardım göstərildikdən sonra o israrla təkrar döyüşlərə qayıdıb. Qolunun yaralı olduğu səbəbindən silah tuta bilməsə də, çoxsaylı yaralıları və şəhidləri ərazidən çıxarmağa nail olub. Oktyabrın 20-də ailəsinə zəng edən zaman telefonunun zədələndiyini deyib. Bəlkə də, elə telefon onu həmin an xilas edibmiş. Döyüş gedən vaxt, oktyabrın 14-də Amin bölük komandiri təyin edilib. Hər kəsin etibarını qazanan Aminin getdiyi yolda ardınca gedən əsgərlər bir an belə tərəddüd etməyiblər.

Onlar Aminin necə bir komandir olduğunu yaxşı biliblər. Elə ona görə də ən öndə gedən Aminin dəstəsi olub. Amin noyabrın 1-də zəng edən zaman "Ata, 3-4 günlük işimiz qalıb. Bitirib dönəcəyik", – deyib. O gündən sonra Amindən bir daha zəng gəlməyib. Sonradan məlum olub ki, Amin bir neçə silahdaşı ilə bərabər noyabrın 2-də Qırmızıbazar istiqamətində şəhid olub. Ancaq bu xəbər uzun müddət sonra təsdiqini tapıb. O zaman kəsiyində isə Mayis müəllim eşitdiyi təzad yaradan xəbərlərlə günbəgün yaralanır. Ancaq o bu xəbərlər təsdiqini tapmadığı üçün heç kimə bu barədə bir söz demir. Oğul axtarışına çıxan atanın gecəsi, gündüzü olmur. Dekabrın 4-də ataya zəng edərək Aminin şəhid olduğu deyilir. Dekabrın 9-da Amin və digər şəhidlərin nəşləri götürülür və Füzuliyə gətirilir. 25 dekabrda gələn zəngə səbri çarmıxa çəkilən ana özü cavab verir. "Amin şəhid olub" sözlərini duyan ananın bir anda sanki dünyadan əli üzülür.

28 dekabrda şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə böyük ehtiramla qarşılanan Vətən ağırlıqda bir şəhid cənazəsi Culfa rayonunun Saltaq kəndinə yol alır...

Baş leytenant Gülməmmədov Amin Mayis oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Amin şəhidlərin ölməzliyini, ruhən bu həyatda var olduqlarını hər zaman hiss etdirir. İlk dəfə 2021-ci ildə Ramazan ayının 27-ci günündə atası onun cənnət qoxusunu duyub və nəfəsini hiss edib. Dəfələrlə namaz vaxtı Amini yanında hiss edən şəhid atasının yeganə təsəllisi elə o varlığı hiss etməkdir. Amin əkiz qardaşı Raminə də varlığını hər zaman duyurur. Canlı-canlı sanki bir yarısını dəfn edən Ramin o həsrəti iliklərinə qədər duyur. Bir əkiz üçün bu itki çox çətin və dözülməzdir. Bir də gözü yollarda qalan şəhid anası var. Kim o anaya Amin ola bilər ki? Aminin bənzərini böyüdən Aminə isə bir gün Əlinin Amin kimi bir qəhrəman olacağı xəyallarına tutunub. Amini tanıyan hər kəsin həyatında onun yeri boş qalıb. O boşluq heç bir zaman dolmayacaq. Həyatda heç zaman görmədiyimiz insanla da doğmalaşmaq olar. Hətta onun məzarının həsrətini çəkmək və həmin məzarı gördüyün an sanki bir doğma insanına sarılırmışsan kimi hiss etmək. Bir də o məzar önündə şəhid qoxulu ata-anaya sarılmaq. O an ürəkdə həm kədər, həm qürur eyni anda baş qaldırır.

Manya SƏXAVƏTQIZI

Əzəldən bəri dilimizdən düşməyən Vətən məfhumu həssaslıqla yanaşdığımız mövzudur. Bəs nədir Vətən? Vətən tapdalayıb keçdiyimiz quru torpaq və ya müəyyən sərhədləri olan coğrafi məkan adlandıra bilərikmi? Axı uğruna minlərlə igidin canından keçdiyi, əsrlərboyu şairlərin vəsf etdiyi, ata-babalarımızın qoynunda əbədi yuxuya daldığı torpağı, sadəcə, quru torpaq adlandırmaq olmaz. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Biz ki, onun suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, kəndimiz, obamız bu torpaqlardadır. Vətən özündə minlərlə mənanı əks etdirir. Ən əsası da o, əsrlərboyu bu torpağın şirin-şirin layla çaldığı şəhidlərin ən dəyərli mirasıdır.

Estafet

Vətən var

Tarix hər zaman müxtəlif qəhrəmanlıqlara, unudulmaz zəfərlərə şahidlik edib. Əlbəttə, danılmaz faktdır ki, türklər bu zəfərlərin əksəriyyətinin müəllifi olub. Unudulmaz sərkərdələrin çoxunun türk olması da göz önündədir. Bunu, sadəcə, təsadüf saya bilmərik. Çünki türklərin tək amalı Vətənin bütövlüyünü qorumaq, onu ucalara daşımaq olub. Vətəni və vətəndaşı sevmək kimi böyük bir əxlaqi keyfiyyət məhz türklərin sahib ola biləcəyi duyğulardır. Dinimizin əmri, Uca Rəbbimizin razı qaldığı əməldir.

Rəvayətlərdən birində "Vətəni sevmək Allaha imandandır" buyurulmuş, Vətən sevgisinin əhəmiyyəti ön plana çəkilmişdir. Qəlbində Allaha imanı olan hər bir kəsin xalqına və Vətəninə də sevgisi olacaqdır.

Bir hədisdə Vətənini qorumağın əhəmiyyətini bildirən Məhəmməd Peyğəmbər belə buyurmuşdur: "Sərhəd boyunca vətəni qoruyan gözləri cəhənnəm atəşi yandırmayacaqdır, Allahın razılığı üçün vətən sərhədlərini qoruyanlara isə daim savab yazılacaqdır".

Vətən üçün mübarizəyə müxtəlif aspektlərdən yanaşa bilərik. Bu mübarizəyə yalnız silahla mübarizə cəhətdən baxmayaq. Ölkə bütövlüyünü öz əsərlərində təbliğ edən elm, ədəbiyyat və incəsənət xadimləri də "silahlı qüvvəmiz" hesab edilə bilər.

İllər ötür, dövr dəyişir, lakin bizim üçün dəyişməyən dəyərlərin öncülü olan Vətən sevdası heç zaman dəyişmir. Ötən əsrin əvvəllərində müqəddəs amal uğrunda şiddətli mübarizə aparmış siyasi xadimlərimiz haqqında danışmaq istəyirəm. Dünya tarixinə bütün müsəlman aləmində ilk respublika kimi daxil olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də yaradılması, heç şübhəsiz ki, Azərbaycanın XX əsrin başlanğıcındakı siyasi və ziyalı elitasının digər görkəmli nümayəndələrinin məqsədyönlü, fədakar əməyinin nəticəsi idi. Əsrin sonlarında isə dövlətçilik, Vətən uğrunda mübarizədə görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri bariz şəkildə görünür. ***"Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"*** şüarı ilə özünə əbədi yol seçən ulu öndər ömürboyu bu amaldan dönməmişdir. Hazırda Vətən uğrunda qətiyyətli mübarizənin davamçısı ümummilli liderin yolunu gedən dövlətçilik ideologiyasını rəhbər tutan Prezident cənab İlham Əliyevdir.

Mən də Babəklərin, Koroğluların, Mübarizlərin, Xudayarların və onlar kimi minlərlə görkəmli şəxsiyyətlərin anadan olduğu, boyabaşa çatdığı bu torpağın, bu Vətənin vətəndaşı olduğum və damarlarımda türk qanı daşıdığım üçün çox xoşbəxtəm. İstərdim ki, bu Vətənə, bu torpağa bacardığım qədər faydam toxunsun. Bu hər kəsin vicdan borcudur. Çünki bu Vətən min bir əziyyətlə, əsrlərboyu davam edən mübarizənin nəticəsində var olub və hər zaman mövcud olacaqdır.

Fikirlərimi böyük türk şairi Məhmət Akif Ərsoyun yazdığı, Türkiyənin "İstiqlal" marşından bir parça ilə sonlandırmaq istəyirəm:

Kim bu cənnət vətənin uğrunda
olmaz ki fəda?
Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!
Canı, cananı, bütün varımı alsın bu xuda,
Etməsin tək Vətənimdən məni
dünyada cüda.

Aysel NURİYEVA
Naxçıvan Dövlət Universitetinin
Jurnalistika ixtisası üzrə III kurs tələbəsi

İtmişdir

Quliyev Pənah Əbülfəz oğlunun adına olan avtomobilin 69 BE 368 nömrəli dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mustafayev Çingiz Hüseyn oğluna məxsus AD-0047271 nömrəli şəxsi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Bağırov Şirəli Məmməd oğlunun adına verilmiş JN-230A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 680